Azərbaycan Respublikasının Prezidenti
**İLHAM ƏLİYEVƏ**
Birinci vitse-prezident
**MEHRİBAN ƏLİYEVAYA**

**Möhtərəm cənab Prezident!**
**Əziz Mehriban xanım!**

Ağır günlərimizdə göstərdiyiniz diqqət və qayğını ailəmiz heç vaxt unutmayacaq. Qənirə Paşayeva Ulu Öndərin və Sizin amalı xalqa və dövlətə sədaqətlə, fədakarlıqla xidmət etmək olan məktəbinizi keçmişdi. O, həyatını bütövlükdə bu müqəddəs işə həsr etmişdi.

**Möhtərəm cənab Prezident!**
**Hörmətli Mehriban xanım!**

Əzizimiz Qənirə Paşayevanın vəfatı ilə bağlı nekroloq imzaladığınız, mərhumun II Fəxri xiyabanda dəfn olunması barədə göstərişiniz, adınızdan əklil göndərməyiniz ailəmizə heç nə ilə əvəzolunmaz təsəlli oldu.

Tapşırığınıza əsasən vida və yas mərasimlərinin Ulu Öndərimizin adını daşıyan "Heydər məscidi"ndə yüksək səviyyədə təşkil olunduğuna görə Sizə minnətdarıq.

Zaman keçdikcə ən ağır yaralar belə sağalır, unudulur. Lakin qəlb yarasına heç bir həkim, heç bir loğman əlac tapa bilmir.

**Möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandan!**

Siz misilsiz dövlətçilik təfəkkürünüz və uzaqgörən siyasətinizlə 200 ildən artıq torpaqlarımızda kök salan yad ünsürləri birdəfəlik kökündən kəsib atmaqla Azərbaycan xalqının qəlbində qövr eyləyən yaranı sağaltdınız. Xalqımıza Azərbaycan tarixinə qızıl hərflərlə yazılan fərəhli günlər, gələcək nəsillərə dinc həyat bəxş etdiniz.

Qənirə Paşayevanın ən böyük arzusu Qarabağı tam azad görmək idi. Nə edəsən ki, sevinc və kədər qoşa yaranıb. Ailəmizə hər ikisi eyni vaxtda qismət oldu.

**Möhtərəm cənab Prezident!**
**Hörmətli Mehriban xanım!**

Əzizimiz Qənirə Paşayevanın vəfatı ilə əlaqədar göstərdiyiniz diqqət və qayğıya görə ailəmiz adından Sizə sonsuz minnətdarlığımızı bildiririk.

*Dərin hörmət və ehtiramla,*

***Qəzənfər PAŞAYEV,***
***Qənirə Paşayevanın əmisi***

***Hüseyn PAŞAYEV,***
***Qənirə Paşayevanın qardaşı***

Azərbaycan. - 2023.- 10 oktyabr.- S.7.